**Təcrübə mübadiləsi**

Vergi əməkdaşları üçün tədris proqramları üzrə tərcübə mübadiləsi aparmaq məqsədilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin nümayəndə heyəti Avstriya Federal Maliyyə Akademiyasında səfərdə olmuşdur. Səfər çərçivəsində müxtəlif mövzular ətrafında geniş müzakirələr aparılmış, Avstriya Federal Maliyyə Akademiyası tərəfindən Azərbaycan və Gürcüstan nümayəndələrinin iştirakı ilə vergi strukturları arasında təcrübə mübadiləsi prosesi təşkil edilmişdir. Tədbirdə Azərbaycandan Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər və vergi ödəyicilərinə xidmət sahələri üzrə nazirin müşaviri Ələkbər Məmmədov, Tədris Mərkəzinin rəisi səlahiyyətlərini müvəqqəti icra edən Ceyhun Yusifov və nazirliyin digər rəsmiləri iştirak etmişlər.

Azərbaycan nümayəndəri Vergilər Nazirliyinin strukturu, yaranma tarixi, İnsan Resurslarının İnkişafı Konsepsiyası, Tədris Mərkəzinin fəaliyyəti, tədris sistemi, texniki imkanları və beynəlxalq əməkdaşlıq sahəsində gördüyü işlər barədə ətraflı məlumat vermişlər. Azərbaycan Republikası Vergilər Nazirliyinin Tədris Mərkəzi haqqında qısametrajlı filmin nümayişi tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanmışdır.

Səfər çərçivəsində Avstriya Federal Maliyyə Akademiyası və Azərbaycanın Vergilər Nazirliyi arasında əməkdaşlığın davam etdirilməsi və əlaqələrin genişləndirilməsi məqsədilə danışıqlar davam etdirilmiş və cari ilin noyabr ayında Avstriya Federal Maliyyə Akademiyasının ekspertlərinin iştirakı ilə Azərbaycan Republikası Vergilər Nazirliyinin Şamaxı şəhərində yerləşən Tədris Mərkəzində «Təlimçilər üçün təlim» sessiyalarının keçirilməsi təklif olunmuşdur. Bununla yanaşı, hər iki qurum arasında bütün sahələrdə əməkdaşlığın təşkil olunması məqsədilə Anlaşma Memorandumunun imzalanması imkanları da müzakirə edilmişdir.